# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 dekabr tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"də, 2018-ci il 16 oktyabr tarixli 451 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gənclər siyasəti ilə bağlı proqram və layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası"nda, 2019-cu il 6 mart tarixli 77 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında avtomagistraldan ödənişli əsaslarla istifadənin dayandırılması və belə istifadəyə xitam verilməsi Qaydası"nda və 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yerli rəy sorğusu haqqında", "Avtomobil yolları haqqında", "Diplomatik xidmət haqqında", "Dövlət satınalmaları haqqında", "Gənclər siyasəti haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında", "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında", "Tənzimlənən qiymətlər haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 818-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 dekabr tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1111; 2013, № 2, maddə 193, № 9, maddə 1129; 2014, № 4, maddə 443; 2020, № 10, maddə 1306) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"nin 4.1.1-ci yarımbəndində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 oktyabr tarixli 451 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2165) ilə təsdiq edilmiş "Gənclər siyasəti ilə bağlı proqram və layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.2-ci bənddə "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin;

2.2. 5.2-ci bənddə "digər kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 mart tarixli 77 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 511) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında avtomagistraldan ödənişli əsaslarla istifadənin dayandırılması və belə istifadəyə xitam verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.6-cı bənddə "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin;

3.2. 2.8-ci bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 803; 2022, № 7, maddə 810; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 275 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.3-cü bənddə "kütləvi informasiya vasitələri, televiziya və radio yayımçıları" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin;

4.2. 3.1.6-cı yarımbənddə “kütləvi informasiya vasitələrinin” sözləri “media subyektlərinin” sözləri ilə əvəz edilsin;

4.3. 4.1.3-cü yarımbənddə “kütləvi informasiya vasitələrinin” sözləri “medianın, o cümlədən” sözləri ilə əvəz edilsin;

4.4. 6.1.10-cu yarımbənddə “Teleradio” sözü “Televiziya və radio” sözləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 3 noyabr 2023-cü il

№ 397